# MƏRD OĞULLAR



Xalqımızın taleyinə qızıl hərflərlə yazılan, 44 gün ərzində qazanılan tarixi zəfərimizdə dağlar diyarı Lerik rayonunun torpaq sədaqətli, Vətən məhəbbətli, qaya dəyanətli, igid oğlu miçman Elvin Səfərovun adı da qəhrəmanlar sırasında çəkilir. Elvin Vətən yolunda canından keçəndə 31 yaşında idi. Həyat yolu qısa oldu. Amma nəsillərə nümunə ola biləcək əsl qəhrəman ömrü yaşadı.

Elvin Ramiz oğlu Səfərov Lerik rayonunun Soru kəndində dünyaya göz açıb. Onun sevdalandığı ali məqsəd yaxşı işlər görməklə xalqına gərəkli bir ömür yaşamaq olur. Elə bu istəklə təmiz, ulu duyğularla yaşayır, qoyduğu əməllərlə insanların gözündə tez də ucalır. 2008-ci ildə həqiqi hərbi xidmətə yola düşəndə bütün istəyini Vətənlə, torpaqla bağlayır. Daxili Qoşunların Xüsusi Təyinatlıların dəstəsində xidmət edir. Sağlam əqidəsi, doğma Azərbaycanına sədaqəti ilə fərqlənir.

Elvin əsgərlikdən sonra el-obanın tərəqqisinə, insanların xeyrinə yönələn işlərin qulpundan yapışır. Əqidəli, saf insan olduğuna görə əl qoyduğu iş gözəl alınır, əməlləri ona hörmət, nüfuz qazandırır. Amma vətən torpağının xilası həmişə onu düşündürür. Bunun üçün həyatını hərbiyə bağlayıb döyüş meydanında düşmənlə qisas gününü gözləyir. 2014-cü ildə Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin "Su Altı Hücum" Xüsusi Təyinatlı Dəstəsinə yazılır. Burada miçman rütbəsində xidmətə başlayır. Daim nümunəvi xidməti ilə seçilir. Təlimlərdə əla döyüşçü keyfiyyətləri göstərir. Hər an Vətən yolunda canından keçməyə hazır olan Elvin hərbin sirlərinə mükəmməl yiyələnir. Doğma torpaq naminə döyüşən cəbhədə erməni dığalarına qalib gəlmək üçün özünü şərəfli döyüşə hazırlayır. O, Türkiyədə, Belarusda Xüsusi Təyinatlıların yarışlarında iştirak edir. MDB ölkələri üzrə keçirilən Xüsusi Təyinatlıların yarışında snayper üzrə birinci yerin sahibi olur. Dəfələrlə ölkəmizi Yunanıstanda keçirilən yarışlarda təmsil etməklə həmişə yüksək nəticələr qazanır.

Dağlar oğlu Aprel döyüşlərində mərdliklə vuruşur, böyük igidlik göstərir. Əsl qisas gününü isə səbirsizliklə gözləyir. Odur ki, sentyabrın 27-də Vətən müharibəsi başlayanda birinci əlinə silah alıb düşmən üzərinə yeriyən qeyrətli oğlanların sırasına qoşulur. Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan, Qubadlı, Hadrut uğrunda gedən döyüşlərin iştirakçısı olur. Belə ki, ağır müharibə meydanlarında çoxlu sayda erməni dığasını məhv edir, onların xeyli hərbi sursatını ələ keçirdir. Həm də çətin məqamlarda yaralı döyüş yoldaşlarına dayaq durur.

31 oktyabr qorxmaz, cəsur, igid Vətən oğlunun taleyində son döyüş olur. Adəti üzrə yenə də ölümün gözünə dik baxa-baxa döyüş meydanına atılır. Vurduğu sarsıdıcı zərbələr erməni dığalarını rüsvayçı məğlubiyyətlə üz-üzə qoyur. Buna baxmayaraq sinəsinə dəyən güllə Vətən eşqi ilə döyünən ürəyini əbədi dayandırır. Onun şəhidliyi Qarabağın azadlığı ilə nəticələnir. Məhz Elvinin həyatda birinci arzusu bu idi...

Elvin Səfərov ölümündən sonra "Vətən uğrunda", Füzuli, Cəbrayıl, Qubadlı, Xocavənd uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə medallara, "Qarabağ" ordeninə layiq görülür. Bunlardan əvvəl üçüncü dərəcəli "Qüsursuz xidmətə görə" və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medallarını da almışdı.

**Zəfər ORUCOĞLU.**

Respublika.-2022.- 11yanvar.- S.6.